**Elvin Vahid oğlu Əlirzayev**

**Təbriz Abdulla oğlu Yadigarov**

**UOT 330.43; JEL: G39.**

# Gömrük daxilolmalarının büdcə gəlirlərinə təsirinin ekonometrik qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin tənzimlənməsində gömrük daxilolmalarının təhlilinin aparılması və ƏDV üzrə büdcə daxilolmalarına ƏDV üzrə gömrük daxilolmalarının, həmçinin xarici iqtisadi fəaliyyətlə bağlı büdcə daxilolmalarına gömrük rüsumlarının təsirinin qiymətləndirilməsidir. Tədqiqatın metodologiyası sistemli təhlil, ümumiləşdirmə, ekonometrik hesablama və qiymətləndirmədir. Tədqiqatın nəticəsi: Gömrük üzrə vergi daxilolmalarının dinamikasına əsasən gömrük üzrə daxilolmaların artım tempi, Azərbaycan Respublikasında ölkə qrupları üzrə ixrac və idxalının coğrafi quruluşu şərh edilmiş, Eviews tətbiqi proqram paketinə əsasən gömrük daxilolmalarının büdcə gəlirlərinə təsir dərəcəsi müəyyən edilməklə, xarici iqtisadi əlaqələrin və maliyyə vəziyyətlərinin qeyri-sabitliyi şəraitində müəyyən edilmiş meyillərə əsasən milli iqtisadiyyatın və xarici iqtisadi əlaqələrin inkişafı ilə bağlı təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *xarici iqtisadi əlaqələr, idxal, ixrac, dövlət büdcəsi, büdcə gəliri, neft, qiymət, fiskal siyasət, gömrük rüsumları, əmsal*

## Giriş

Hər bir ölkənin iqtisadi fəaliyyətinin başlıca istiqaməti rəqabətqabiliyyətli məhsul istehsal edərək dünya əmtəə bazarında qabaqcıl yer tutaraq dünya təsərrüfatında baş verən qloballaşma prossesinə uyğunlaşmaqla, iqtisadi fəaliyyət sahələrinidə istehsal oluna məhsulların idxal və ixracının səmərəli bölgüsünün təmin edilməsidir. Son dövrlərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində aparılan uğurlu iqtisadi siyasət nəticəsində gömrük daxilolmaları əvvəlki illərlə müqayisədə artım nümayiş etdirməkdədir. Bu artım respublikamızda iqtisadi inkişafa təsir edərək dövlət büdcəsinin formalaşmasına müsbət təsir etmişdir. Qeyd etmək lazımdır ki, gömrük ödənişləri fiskal funksiyasını yerinə yetirərək bdcə gəlirlərinin formalaşmasına təsir edən amillər içərisində mühüm yer tutur. Əsasən təbii neft ehtiyatları ilə zəngin olan ölkələrin dövlət büdcəsinin formalaşmasında neft qiymətləri mühüm rol oynayır. Beynəlxalq əmtəə ticarəti bazarındakı maliyyə vəziyyətinin qeyri-sabitliyi, gömrük inteqrasiyasının genişləndirilməsi, iqtisadi metodlarla tənzimlənən təhlükəsiz milli iqtisadiyyat yaratmağa yönəlmiş mexanizmin yaradılması mühüm əhəmiyyət kəsb edir. İqtisadi metodların mahiyyəti gömrük işinin iqtisadi proseslərə təsiri üçün səmərəli mexanizm yaratmağa imkan verən gömrük tarifləri, ödənişlər, vergilər, valyuta məzənnələri, ödəmə balansı və digər iqtisadi alətlər vasitəsilə idarəetmə obyekti olan xarici iqtisadi fəaliyyətin iqtisadi mənafelərinə təsir edir.

*©Elvin Vahid oğlu Əlirzayev i.f.d.,dos., Dövlət Gömrük Komitəsinin Akademiyası, kafedra müdiri, alirza84@hotmail.com. Təbriz Abdulla oğlu Yadigarov i.f.d., AMEA-nın İqtisadiyyat İnstitutu, ceyranchol@rambler.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Xarici ticarətdə gömrük-taarif tənzimlənməsi alətləri milli iqtisadiyyatın inkişafı**

Xarici ticarət fəaliyyətinin gömrük-tarif tənzimlənməsi alətləri və milli iqtisadiyyatın inkişafı kimi gömrük rüsumlarının, vergilərin, ödənişlərin miqdarı - gömrük ödənişlərinin tərkib elementləri kimi aşağı və ya yuxarı səviyyədə proteksionist funksiyanı yerinə yetirməklə dəyişə bilər. Belə ki, fəaliyyətdə olan gömrük rüsumları, vergilərin və ya onların ləğvinin təsiri əmtəə istehsalçılarının, xarici iqtisadi fəaliyyət iştirakçılarının iqtisadi maraqlarına birbaşa təsir göstərir. Gömrük rüsumlari və vergilər idxal olunan və ixrac edilən məhsulların dəyərinin formalaşmasında, idxal olunan və ixrac edilən məhsulların qiymət səviyyəsinə, müəyyən məhsul bazarlarında səmərəli tələb və təklifin ödəmə qabiliyyətinin həcminə təsir edir. Gömrük ödənişləri və gömrük rüsumları şərtlərinin anlayışları dedikdə əsasən gömrük rüsumuna görə, Gömrük İttifaqının Gömrük Məcəlləsinin 4-cü maddəsinə görə gömrük orqanlarının malların gömrük sərhədindən keçməsi ilə bağlı gömrük orqanlarından götürülən məcburi ödənişi başa düşülür [2].

**Qrafik 1.**

**Gömrük üzrə büdcə daxilolmalarının, Azərbaycan Respublikası üzrə büdcə gəlirlərində payı (%)**




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Gömrük ödənişlərinin tərkibinə idxal gömrük rüsumu, ixrac gömrük rüsumu, Gömrük İttifaqının gömrük ərazisinə malların idxalına görə əlavə dəyər vergisi, Gömrük İttifaqının gömrük ərazisinə malların gətirilməsinə görə götürülən aksiz və gömrük rüsumları daxildir [2]. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi son illərdə büdcə gəlirlərinin 10%-dən çoxunu idarə edir. Bunu aşağıdakı qrafikdən görmək olar. Yuxarıdakı qrafikdən göründüyü kimi 2007-2013-cü illərdə gömrük üzrə büdcə daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi 13%-dən 7% düşmüş, 2013-cü ildən isə 2017-ci ilədək artaraq 17,15%-ə çatmışdır ki, bu da 2013-cü illə müqayisədə 2,4 dəfə yüksəkdir. ARDGK-də aparılna iqtisadi islahatlar hessabına büdcə daxilolmalarının tərkibində xarici iqtisadi fəaliyyətdən, ƏDV və aksiz vergilərindən daxil olan ödənişlərin payı daha da artmışdır. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Qrafik 2**

**Gömrük üzrə ƏDV, aksiz və xarici iqtisadi fəaliyyət üzrə daxilolmaların, büdcə gəlirləri üzrə həmin göstəricilərdə payı (%)**




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, 2017-ci ildə ARDGK üzrə ƏDV daxilolmaları büdcə gəlirlərində ƏDV-nin 52,2%-ni, aksiz vergisi üzrə daxilolmalar 16,6%-ni, xarici iqtisadi fəaliyyət üzrə ( ixrac və idxal əməliyyatları üzrə) isə 85,1%-ni təşkil etməklə əvəlki illərlə müqayisədə artım nümayiş etdirmişdir. Qeyd etmək lazımdır ki, büdcə tapşırıqlarının yerinə yetirilməsi ölkəmizdə sosial və iqtisadi vəzifələrin uğurla həll edilməsinə imkan verən müsbət bir addımdır. Gömrük üzrə vergi daxilolmalarının dinamikasına əsasən gömrük üzrə daxilolmaların artım tempi 2007-ci ildən 2010-cu ilədək azalmışdır. Aşağıdakı qrafikdə ARDGK-nin statistik məlumatlarından bunları daha aydın görmək olar.

**Qrafik 3**

**Büdcə gəlirlərində gömrük ödənişlərinin dinamikası**




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikə əsasən gömrük üzrə daxilolmalarının 2009 cü ildə 0,01% azalma tempi nümayiş etdirməsi dünyanı bürüyən qlobal maliyyə böhranlarının ölkəmizin xarici ticarətindən də yan keçməməsi ilə izah edilir. 2010-2013-cü illərdə gömrük



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

daxilolmalarının həcminin artmasına baxmayaraq 2013-2015-ci illərdə maliyyə böhranları ilə əlaqədar olaraq neftin qiymətinin kəsgin uzuzlaşması gömrük daxiolmalarının artım tempinin 2013-cü illə müqayisədə 9,1 vahid azalması ilə nəticələnərək ödənişlərin fiskal fünksiyasının həmin dövr üzrə azalma tempi ilə xarakterizə edilməsi ilə nəticələnmişdir. Sonrakı illərdə isə gömrük sahəsində aparılımış uğurlu iqtisadi islahatların hesabına gömrük daxilolmaları üzrə əvvəlki illə müqayisədə artım tempi nümayiş edilmişdir.

**Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin inkişaf meyilləri**

Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiya prosesinin mürəkkəbliyinə baxmayaraq, Azərbaycanın ÜTT-yə tam hüquqlu iştirak etməsi onun uzunmüddətli iqtisadi maraqlarına tam uyğun gəlir [5]. Azərbaycanın qloballaşma proseslərində fəal iştirakının aparıcı istiqaməti, göründüyü kimi, dinamik olaraq artan xarici ticarət əlaqələridir. Dünya iqtisadiyyatında qloballaşmanın inkişafı müxtəlif beynəlxalq inteqrasiya birliklərinin yaradılması yolu ilə regionallaşma proseslərinə uyğun olaraq inkişaf edir. Azərbaycanın qısa müddət ərzində kapitalın beynəlxalq hərəkətində fəal iştirak etməsi, qlobal proseslərə qoşulmasına təkan verən mühüm amillərdən biridir. Kapitalın beynəlxalq axını müasir dövrün xarakterik xüsusiyyətini təşkil edir, təsərrüfatın beynəlmiləlləşməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə qlobal təsərrüfat əlaqələrinə qoşulmanın səmərəliliyi əsaslı dərəcədə ölkənin beynəlxalq rəqabət qabiliyyətinə malik olma dərəcəsinin səviyyəsindən asılıdır. Miladdan öncə II əsrdən başlayan tarixi “Böyük İpək Yolu” nun yenidən bərpası, bu yolun mərkəzində yerləşən Azərbaycan üçün çox mühüm strateji əhəmiyyət kəsb edir.



Texnoloji inqilabların mərkəzi olan Avropaya alternativ yollarla çıxış, bu ölkələrdə iqisadiyyatın müasir texniki və texnologiya ilə yenidən qurulmasında və bazar iqtisadiyyatının formalaşmasında mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, Böyük İpək Yolu layihəsi Orta Asiya və Qafqaz ölkələrinin Rusiyadan asılılığının zəiflədilərək aradan qaldırılmasında da müstəsna əhəmiyyətə malikdir. Bu layihə zəngin faydalı qazıntı potensialının mənimsənilməsi və dünya bazarına çatdırılması üçün həmin ölkələrin xarici kapital cəlb etmək imkanlarını daha da genişləndirmişdir. XXI əsrdən etibarən dünya ölkələrinin beynəlxalq iqtisadi inteqrasiyası daha da dərinləşdiyindın, hər hansı bir dövlətdə sosial-iqtisadi proseslərin inkişaf istiqamətləri, onların dünyada mövcud olan inteqrasiya birliklərinə daxil olmasından əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan Respublikasının son dövrlərdə xarici ticarətdə əldə etdiyi uğurlar əsasən əlverişli coğrafi mövqeyə uyğun olaraq xarici ticarətin coğrafiyasının genişliyi ilə izah edilir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

**Qrafik 4.**

**Azərbaycan Respublikasının ixrac üzrə xarici ticarət əlaqələrinin coğrafi quruluşu (mln. ABŞ dolları ilə)**




Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasının ixracında əsas yerləri Avropa və Asiya ölkələri tutur. Bu əlaqələr daha çox Avropaya meylliliklə müşahidə edilir.

**Qrafik 5.**

**Azərbaycan Respublikasının idxal üzrə xarici ticarət əlaqələrinin coğrafi quruluşu (milyon ABŞ dolları ilə)**



| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Okeaniya | 31,3 | 0,4 | 0,5 | 0,6 | 0,3 | 0,7 |
| Afrika | 417,2 | 475 | 539,1 | 293,9 | 243,2 | 184,8 |
| Amerika | 1610,8 | 992,8 | 994,1 | 561,9 | 182,6 | 597,5 |
| Asiya | 9198,9 | 9573,4 | 7800,3 | 4484,1 | 4819,9 | 4476,8 |
| Avropa | 12649,7 | 12933,7 | 12494,6 | 7384,6 | 8211,5 | 8551,8 |
| Cəmi | 23908 | 23975,4 | 21828,6 | 12729,1 | 13457,6 | 13811,6 |

Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasının ixrac əməliyyatlarında Avropa və Asiya ölkələri əsas yer tutur. Bu iqtisadi əlaqələr də getdikcə daha çox Avropaya meylliliklə müşahidə edilir. Cədvəl məlumatlarına əsasən Azərbaycanda ixracın 50-60 %-i məhz Avropanın payına düşür. Azərbaycan Respublikasında ölkə qrupları üzrə ixracın coğrafi quruluşu da ölkənin beynəlxalq iqtisadi əlaqələr üzrə assosiativ fəaliyyətinin genişlənməsini göstərir.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasında ölkə qrupları üzrəın ixracın coğrafi quruluşu (milyon ABŞ dolları ilə)**

| Ölkə qrupları | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Müstəqil Dövlətlər Birliyi (MDB) | 1252,0 | 1509, 6 | 838, 0 | 526,4 | 663,6 | 1050,1 |
| Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı | 3708,1 | 3420, 6 | 2124, 2 | 2645, 3 | 2369,9 | 3202,3 |
| İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) | 1001,3 | 946,0 | 952 ,3 | 1794,91 | 1442,2 | 1532,1 |
| İslam Konfransı Təşkilatı (İKT) | 4013, 9 | 4562,0 | 3791, 5 | 2782, 3 | 1911,8 | 2262,4 |
| İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) | 12758,0 | 12674,2 | 12647, 7 | 8452, 9 | 8591,7 | 9074,9 |

Mənbə. ARDGK-nin statistik məlumatlarına əsasən tərtib edilmişdir

Cədvəl məlumtlarından göründüyü kimi İxracda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İslam Konfransı Təşkilatı xüsusi çəkilərinə görə digər ölkə qruplarından fərqlənir. Coğrafi baxımdan Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizinin, Avropa və Asiyanın kəsişməsində yerləşməsi dünya ölkələrinə və dünya iqtisadiyyatına inteqrasiyası, Avropa ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi və beynəlxalq nəqliyyat qovşağına çevrilməsində geniş imkanlar yaratmışdır. Bu cür əlverişli coğrafi mövqenin yarafdığı münbit şərait, Azərbaycanın bir çox strateji əhəmiyyətli layihələrə qoşulmaqla iqtisadi qüdrətinin artması ilə nəticələnmişdir. Azərbaycan üçün qloballaşma və regionallaşma



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

milli iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi üçün böyük potensial imkanların olması ilə inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlmək üçün geniş şərait yaradır. Bu baxımdan Azərbaycan Respublikası həmin proseslərə uyğunlaşaraq qloballaşmış dünya iqtisadiyyatında özünə layiqli yer tutacaqdır.

**Azərbaycan Respublikasında bücə daxilolmalarının mövcud vəziyyəti**

Əgər 2018-ci il üzrə büdcə gəlirlərinin qruluşu göstərir ki, burada balanslaşmada qeyri-bərabərlik müşahidə edilir. Aşağıdakı diaqrammada 2018-ci il üzrə dövlət büdcəsinin gəlirlərinin qruluşu göstərilmişdir.

**Qrafik 6**

**Azərbaycan Respublikasında bücə daxilolmalarının quruluşu (%)**




Mənbə. ARDSK-nin məlumatlarına əsasən tərtib edilmişdir.



Qrafikdən göründüyü kimi 2018-ci ildə ƏDV büdcə daxilolmalarının 19,1%-ni təşkil etmişdir ki, bunun da 52,2%-i ARDGK üzrə ƏDV daxilolmalarının payına düşmüşdür. Aksiz vergisi üzrə daxilolmalar 3,2% təşkil etmişdir ki, bunun da 16,6%-ni ARDGK üzrə aksiz daxilolmaları, xarici iqtisadi fəaliyyət üzrə isə 5,1% büdcə daxilolmalarının 85,1%-ni ARDGK –nin xarici iqtisadi fəaliyyət üzrə gömrük daxilolmaları təşkil etmişdir. Büdcə daxilolmalarında xarici-iqtisadi əlaqələr üzrə daxilolmalar Azərbaycanda 0,6% təşkil edirsə, Rusiyada bu göstərici federal büdcə üzrə 30-40% arasında dəyişərək 60%-i xammal ixracı üzrə gömrük rüsumlarının üzərinə düşmüşdür [4; 6]. Göründüyü kimi Azərbaycanla müqayisədə Rusiya Federasiyasında federal büdcə daxilolmalarının tərkibində qeyri-bərabərlik olduqca yüksəkdir. Bu isə milli iqtisadiyatın inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təhlükə altına düşməsinə şəraitin yaranması ilə nəticələnə biləcəyini göstərir.

**ARDGK üzrə ƏDV daxilolmalarının büdcə daxilolmalarına təsirinin ekonometrik qiymətləndirilməsi**

Qeyd etmək lazımdır ki, Azərbaycan Respubliasında gömrük daxilolmalarının büdcə daxilolmalarının həcminin artmasına təsir edərək ölkə üzrə sosial-iqtisadi inkişafın tarazlıığnda mühüm rol oynayır. Burada ARDGK üzrə daxilolmaların büdcə daxilolmalarına təsirinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə gömrük üzrə ƏDV-nin büdcə üzrə ƏDV-yə təsirinin qiymətləndirilməsi üçün aşağıdakı cədvəl məlumatlarından istifadə edək.

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında 2007-2017-ci illər üzrə büdcə və gömrük üzrə ƏDV daxilolmaları**

| İllər | Büdcə üzrıə ƏDV (Y) | Gömrük üzrə ƏDV (X) |
|---|---|---|
| 2007 | 1179,2 | 535,06 |
| 2008 | 1910,9 | 775,23 |
| 2009 | 2012,8 | 832,52 |
| 2010 | 2082,8 | 810,95 |
| 2011 | 2222,7 | 835 |
| 2012 | 2366,9 | 883,37 |
| 2013 | 2710 | 986,08 |
| 2014 | 3119,6 | 1070,96 |
| 2015 | 3454,7 | 1101,16 |
| 2016 | 3623,5 | 1366,91 |
| 2017 | 3668,6 | 1915,78 |

Mənbə. (8), (10) materiallarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1 məlumatları üzrə 2007-2017-cı illər üzrə Azərbaycan Respublikasında gömrük üzrə ƏDV daxilolmaları ilə büdcə üzrə ƏDV-nin səviyyəsi arasındakı asılılığın reqressiya analizinin aparılması üçün Eviews proqram paketindən istifadə edərək cədvəl 2 məlumatlarına əsasən aşağıdakı nəticəni alarıq.

**Cədvəl 3.**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: Y | | | | |
| Method: Least Squares | | | | |
| Date: 05/09/19 Time: 09:52 | | | | |
| Sample (adjusted): 2007 2017 | | | | |
| Included observations: 11 after adjustments | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| X | 1.898268 | 0.361965 | 5.244336 | 0.0005 |
| C | 659.6547 | 387.1830 | 1.703728 | 0.1226 |
| R-squared | 0.753445 | Mean dependent var | | 2577.428 |
| Adjusted R-squared | 0.726050 | S.D. dependent var | | 806.1622 |
| S.E. of regression | 421.9469 | Akaike info criterion | | 15.09060 |
| Sum squared resid | 1602353. | Schwarz criterion | | 15.16295 |
| Log likelihood | -80.99831 | Hannan-Quinn criter. | | 15.04500 |
| F-statistic | 27.50306 | Durbin-Watson stat | | 0.853224 |
| Prob(F-statistic) | 0.000532 | | | |

Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

$$Y = 1.89826788996*X + 659.654726436 \qquad (1)$$

(1) modelinə daxil olan sərbəst dəyişənlə asılı dəyişən arasındakı korrelyasiya asılılığını təhlil edərək, belə nəticəyə gəlmək olar ki, tədqiq olunan dövr üzrə gömrük üzrə ƏDV-nin bir vahid artması, büdcə üzrə ƏDV daxilolmalarını 1,9 vahid artmasına səbəb olmuşdur. Əgər $y = \alpha_0 + \alpha_1 x = 1{,}898x + 650{,}65$ cüt korrelyasiyanın xətti reqresiya



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

$$E = \frac{\alpha_1 \bar{x}}{\bar{y}} = \frac{1,898 \times 1010,275}{2577,427} = 0,74$$

Alınmış hesabat nəticində müəyyən edilmişdir ki, Azərbaycanda gömrük üzrə ƏDV-nin 1% artması büdcə üzrə ƏDV-nin 0,74 % artması ilə nəticələnmişdir. Çoxluq korrelyasiya əmsalının R=0,72 olması gömrük üzrə ƏDV ilə büdcə üzrə ƏDV daxilolmaları arasında əlaqənin yüksək olmasını göstərir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (75,3%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir. Qurulmuş (1) modelinin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafikdə verilmişdir.

**Qrafik 8.**




Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edilməlidir. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən, F- statistic (Fişer kriteriyası) = 27.5. EXCEL-də F cədvəl qiymətini $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fраспобр düsturunun köməkliyi ilə təyin etsək, $F_{cədvəl}$ (a; m; n − m − 1) = Fраспобр(0,05; 1; 9) =5,12 olar. F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (27.5>5,12). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşımaqla, (1) modelinin adekvatlığı deməkdir. Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə tapılmış büdcə üzrə ƏDV daxilolmalarının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir. göstərilmişdir.

**Qrafik 9.**




| | |
|---|---|
| Forecast: YF | |
| Actual: Y | |
| Forecast sample: 2000 2017 | |
| Adjusted sample: 2007 2017 | |
| Included observations: 11 | |
| Root Mean Squared Error | 381.6653 |
| Mean Absolute Error | 310.8532 |
| Mean Abs. Percent Error | 12.79268 |
| Theil Inequality Coefficient | 0.071313 |
| Bias Proportion | 0.000000 |
| Variance Proportion | 0.070657 |
| Covariance Proportion | 0.929343 |

Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən mğəllif tərəfindən hazırlanmışdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Qrafikdən istifadə edərək Azərbaycanda büdcə üzrə ƏDV daxilolmalarının proqnoz qiymətlərini də müəyyən etmək olar.

**ARDGK üzrə gömrük rüsumlarının büdcə daxilolmalarına təsirinin ekonometrik qiymətləndirilməsi**

Büdcə daxilolmalarında gömrük rüsumlarının payı son dövrlərdə, xüsusən də 2013-cü ildən başlayaraq artmaqda davam etmiş və 2017-ci ildə 17,2% təşkil edərək büdcə xərclərinin normal tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir [6]. Büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdə gömrük rüsumlarının payı 2007-ci ildə 54,7% təşkil edirdisə 2017-ci ildə bu göstərici 30,4 vahid artaraq 85,1%-ə çatmışdır. Bu baxımdsan ARDGK üzrə büdcə daxilolmalarında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərə gömrük rüsumlarının təsirinin qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı cədvəl məlumatlarından istifadə edərək ARDGK üzrə gömrük rüsumlarının büdcə üzrə xarici iqtisadi fəaliyyətə təsirini qiymətləndirmək olar.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında 2007-2017-ci illər üzrə büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergilər və gömrük rüsumları üzrə daxilolmalar**

| | Büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | Gömrük rüsumu üzrə |
|---|---|---|
| 2007 | 293,2 | 160,28 |
| 2008 | 449,7 | 238,64 |
| 2009 | 418,1 | 205,68 |
| 2010 | 291,8 | 218,25 |
| 2011 | 433,1 | 231,58 |
| 2012 | 592,5 | 230,62 |
| 2013 | 675,2 | 298,25 |
| 2014 | 684,7 | 365,89 |
| 2015 | 934,5 | 387,38 |
| 2016 | 861,2 | 546,64 |
| 2017 | 903 | 768,27 |

Mənbə. (8), (10) materiallarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Eviews proqram paketindən istifadə edərək cədvəl 4 məlumatlarına əsasən aşağıdakı nəticəni alarıq.

**Cədvəl 5.**

| | | | | |
|---|---|---|---|---|
| **Dependent Variable: Y** | | | | |
| **Method: Least Squares** | | | | |
| **Date: 05/09/19 Time: 11:52** | | | | |
| **Sample (adjusted): 2007 2017** | | | | |
| **Included observations: 11 after adjustments** | | | | |
| **Variable** | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| **X** | 1.061240 | 0.250765 | 4.232005 | 0.0022 |
| **C** | 241.9912 | 93.86849 | 2.577981 | 0.0298 |
| **R-squared** | 0.665550 | Mean dependent var | | 594.2727 |
| **Adjusted R-squared** | 0.628389 | S.D. dependent var | | 236.0288 |
| **S.E. of regression** | 143.8829 | Akaike info criterion | | 12.93884 |
| **Sum squared resid** | 186320.6 | Schwarz criterion | | 13.011 |



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

| | | | | |
|---|---|---|---|---|
| | | | | 19 |
| **Log likelihood** | -69.16363 | Hannan-Quinn criter. | | 12.893<br>24 |
| **F-statistic** | 17.90987 | Durbin-Watson stat | | 1.1723<br>71 |
| **Prob(F-statistic)** | 0.002200 | | | |
| | | | | |
| | | | | |

Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

$$Y = 1.06123998885*X + 241.991218682 \qquad (2)$$

(2) modelinə daxil olan göstəricilər arasındakı korrelyasiya asılılığına əsasən belə nəticəyə gəlmək olar ki, gömrük rüsumlarının bir vahid artması, büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının 1,1 vahid artmasına səbəb olmuşdur. $y = 241{,}99 + 1{,}061x$ cüt korrelyasiyanın xətti reqresiya tənliyi üçün elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

$$E = \frac{\alpha_1 \bar{x}}{\bar{y}} = \frac{1{,}061 * 331{,}95}{594{,}27} = 0{,}593$$

Alınmış hesabata əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda gömrük rüsumlarının 1% artması büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarını 0,59% artırır. Çoxluq korrelyasiya əmsalı 0,62 olduğundan, Çeddok şkalasına əsasən tədqiq olunan göstəricilər arasında əlaqə yüksəkdir. Eviews tətbiqi proqram paketinin nəticəsinə görə determinasiya əmsalının $R^2$=0,6655 olması isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 66,6% dispersiya nəticə göstəricisi ilə 33,4%-i isə modelə daxil olmayan digər amillərin təsiri nəticəsində izah edilir. Bu isə reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının 66,6%-nin modelə daxil olan gömrük rüsumları amili hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlasaq, F-Fişer kriteriyası $> F_{cədvəl}$ (17.91>5,12) alarıq. Bu isə reqressiya tənliyinin bütövlükdə statistik əhəmiyyətli xarakter daşıması olmaqla, qurulmuş (1) modelin adekvatlığı deməkdir. Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir.

**Qrafik 10.**




Mənbə. Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Qrafikdən istifadə edərək Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının proqnoz qiymətlərini də müəyyən etmək olar. MS Excel proqramına əsasən ARDSK-nin məlumatlarından istifadə edərək büdcə üzrə xarici iqtisadi fəlayyətlə bağlı vergi daxilolmalarının proqnozlaşdırsaq aşağıdakı nəticəni alarıq.

**Qrafik 11.**

**Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının proqnoz qiymətləri**




Mənbə. MS Excel proqramına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən göründüyü kimi Azərbaycan Respublikasında büdcə üzrə xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının proqnoz qiymətlərinin 2025-ci ildə 2018-ci illə müqayisədə 39,5% və yaxud 395,5 mln.manat artacağı gözlənilir.

**Nəticə**

Azərbaycan iqtisadiyyatınının dünya ticarət sisteminə inteqrasiyası və xarici ticarət əlaqələrinin təhlili göstərir ki, Azərbaycan Respublikasının ixrac və idxalında Avropa və Asiya ölkələri əsas yer tutaraq, iqtisadi əlaqələr əsasən getdikcə daha çox Avropaya meylliliklə müşahidə edilir. İxracın 60 %-i Avropanın payına düşür. ARDGK üzrə ƏDV daxilolmaları, ƏDV üzrə büdcə daxilolmalarının 52,2%-ni, aksiz daxilolmaları aksiz vergisi üzrə daxilolmaların 16,6%-ni, xarici iqtisadi fəaliyyət üzrə gömrük daxilolmaları isə xarici iqtisadi fəaliyyət üzrə büdcə daxilolmalarının 85,1%-ni təşkil etmişdir. Bu isə büdcə daxilolmalarının tərkibində MDB ölkələri ilə o cümlədən, Rusiya ilə müqayisədə qeyri-bərabərliyin yüksək olmaması hesabına, Azərbaycan milli iqtisadiyatının inkişafında ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir. Həmçinin, tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda gömrük üzrə ƏDV-nin 1% artması büdcə üzrə ƏDV-nin 0,74 %, gömrük rüsumlarının 1% artması isə büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmalarını 0,59% artırır. Eviews tətbiqi proqram paketinə əsasən gömrük üzrə ƏDV ilə büdcə üzrə ƏDV arasında, eyni zamanda gömrük rüsumları ilə büdcə üzrə xarici iqtisadi fəaliyətlə bağlı vergi daxilolmaları arasında yüksək korelyasiya əlaqəsinin olduğu müəyən edilərək, reqresiya tənlikləri qurulmuş və reqressiya tənliyinə əsasən xarici iqtisadi fəaliyətlə bağlı büdcə üzrə vergi daxilolmalarının və ƏDV daxilolmalarının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları qrafiki olaraq müəyyən edillmişdir. Tədqiqat nəticəsində qurulmuş modellərin adekvatlığının yüksək olması müəyyən edilərək, Azərbaycan Respublikasında büdcə üzrə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xarici iqtisadi fəaliyyətlə bağlı vergi daxilolmalarının 2025-ciilədək proqnoz qiymətləri hesablanmışdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublika-sının Qanunu, Bakı şəhəri, 22 noyabr 2013-cü il.
2. Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublika-sının Qanunu, Bakı şəhəri, 28 noyabr 2014-cü il.
3. Бережная Е.В., Бережной В.И. Математические методы моделирования экономичес-ких систем: Учеб. пособие, 2-е изд., перераб. и доп. М.Финансы и статистика, 2006, 432 с.
4. Farrar Donald E. and Glauber, Robert R. «Multicollinearity in Regression Analysis: The Problem Revisited», The Review of Economics and Statistics, 1967, 49(1):92-107. 4.
5. И.В.Орлова, В.А.Половников. Экономико-математические методы и модели: компью-терное моделирование: Учеб. пособие. 3-е изд., перераб. и доп.-М.: Вузовский учеб-ник: ИНФРА-М, 2013, 389 с.
6. Мур, Джеффри, Уэдерфорд, Ларри Р., и др. Экономическое моделирование в Microsoft Excel, 6-е изд. М.: Издательский дом "Вильямс", 2004, 1024 с.
7. Orucov E., Əlizadə İ. Azərbaycan Respublikasının vergi daxilolmalarının qısa zaman sıra-larının stoxastik modellərlə proqnozlaşdırılması. Beynəlxalq hüquq və inteqrasiya problemləri, Elmi-analitik və praktiki jurnal, N 3 (39), 2014, s. 407-416.
8. Тищенко А.Н., Беляевская Л.А., Бабкина Е.С. Применение многофак-торного анализа при прогнозировании налоговых поступлений от внешнеэконо-мической деятель-ности и малого бизнеса. Национальная библиотека Украины имени В.И.Вернадского. Электронный ресурс. http://www.irbis-nbuv.gov.ua.
9.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı, www.stat.gov.az.
10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet saytı, www.taxes.gov.az.
11. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet saytı, www.malyyə.gov.az.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Эльвин Вахид оглы Алирзаев***
***Табриз Абдулла оглы Ядигаров***

***Эконометическая оценка влияния таможенных доходов на бюджетные поступления***

***Резюме***

*Цель исследования: проанализировать таможенные доходы при регулировании внешнеэкономических связей Азербайджанской Республики и оценить влияние НДС таможенных пошлин на бюджетные доходы по НДС, а также степень влияния таможенных доходов на бюджетные поступления по внешнеэкономической деятельности. Методология исследования: систематический анализ, обобщение, эконометрический расчет и оценка. Результат исследования: была интерпретирована динамика таможенных доходов, темпы роста таможенных доходов, географическая структура экспорта и импорта в Азербайджанской Республике, а также степень влияния таможенных доходов на доходы бюджета на основе приложения программного пакета Eviews.*

***Ключевые слова:*** *внешнеэкономические связи, импорт, экспорт, государственный бюджет, доходы бюджета, нефть, цена, фискальная политика, таможенные пошлины, коэффициенты*

***Elvin Vahid Alirzaev***
***Tabriz Abdulla Yadigarov***

***Econometric evaluation influence of custom receipts to budget revenues***

***Summary***

*Purpose of the research: to analyze customs revenues in the regulation of foreign economic relations of the Azerbaijan Republic and to evaluate the effect of budget revenues on VAT to VAT customs duties and budgetary receipts on foreign economic activity. Methodology of the study: systematic analysis, summarization and econometric calculation and evaluation. The result of the research: The dynamics of customs revenues, the rate of growth of customs revenues, the geographical structure of exports and imports in the Azerbaijan Republic were interpreted, and the degree of impact of customs revenues on budget revenues based on the Eviews application software package were determuned.*

***Key words:*** *foreign economic relations, import, export, state budget, budget revenues, oil, price, fiscal policy, customs duties, coefficients.*

**Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov**
**Daxil olub:19.08.2019.**
**Çapa qəbul olunub:26.08.2019.**



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*